# 3. KİMLİYİN MƏNƏVİ TƏQDİMİ

Kənddən gələn bir gənc üçün - istər oğlan olsun, istər qız - tələbəlik həyatı heç vaxt görmədiyi, tanış olmadığı yeni bir mühitə qədəm qoymaqdır. Əgər belə demək mümkünsə, Sitarə də Bakıya təhsil almağa gəlişi ilə yeni bir həyata başlayır. Bu həyat ona nələri vəd edir?

Əlbəttə, çoxlu çətinliklər var; şəhər həyatını tanımamağı, təhsillə bağlı çoxlu problemləri, hətta məişətini qurmağı, kirayə ev axtarmağı, istər tələbə yoldaşları ilə, istərsə də, yaşamalı olduğu yerdə qonum-qonşuları, lap elə kirayədarla münasibətlərini özü tənzimləməlidir. Şübhəsiz, bu münasibətləri mürəkkəbləşdirən əsas çətinliklərdən biri də təbiətcə yeni insanlarla bəzən fərqli dəyərlərə sahib olan tay-tuşları, ünsiyyətə məcbur olduğu adamları yeni xarakterdə, yeni xasiyyətdə görməsidir. Orta məktəbdə oxuduğu dövr - kənddə gördüyü həyat tamam başqa idi. Sanki kənddə həyat özü tənzimlənirdi. O da hər hansı bir ünsiyyətdə heç bir çətinlik görmürdü. Bilirdi ki, qarşısına çıxana salam verməlidi, bir qocanın köməyə ehtiyacı varsa, ona əl tutmalıdır. Bir uşağın ayağına tikan batıb onu ağladırsa, yaxınlaşmalı, tikanı onun ayağından çıxartmalı, özünə də qayğı göstərməlidir. Amma bura böyük paytaxt şəhəridir. Hətta adicə gülümsəmək, salam vermək belə münasibətlərdə müəyyən problemlər yarada bilər.

Sitarə özünə inamlı qızdır. Həyatını tənzimləməyi, yeri gəlsə, hətta çətinliyə düşsə belə yol tapmağı bacarandır. Amma buna baxmayaraq onun da rastlaşdığı qəlizliklər var ki, bundan çıxış yolu tapmaqda çətinlik çəkməli olur. O, təhsilə başladığı ilk gündən qonşu kənddən olan Laçın adlı qızla bir otaqda qalmalı olur.

Ulduz tələbə həyatının maraqlı, həm də özünəməxsus mürəkkəbliyi olan kiçik bir detalla Sitarənin təbiətinə işıq sala bilir: *"Qonşu kənddən Pedaqoji İnstitutda oxuyan Laçın adlı bir qızla ev kirayələmişdik. Qəribə qız idi Laçın. Evin bir qızıydı. Çox ərköyün və kaprizliydi. Amma mən çox şeyi eşitməzliyə vururdum. Evi növbə ilə yığışdırmağı qərarlaşdırmışdıq. Amma çox vaxt o öz növbəsində evi yığışdırmırdı. Bir neçə dəfə ona bunu xatırlatdım, ancaq faydası olmadı. Bir ildən sonra Laçının xalası qızı Nəsrin də bizimlə qalmalı oldu. Yenə qərarlaşdıq ki, hər gün birimiz təmizlik işlərinə baxacağıq. O yenə də öz hərəkətlərindən əl çəkmədi. Nəsrin onun bu kaprizinə dözə bilmirdi. Bir ildə onların çox mübahisələri oldu. Və buna dözə bilməyən xalaqızı özünə başqa ev tapdı. Nəsrinin getməsi yaxşı olmadı. Mən lap tək qaldım. Həmişə evə gec gələn otaq yoldaşıma mən də tab gətirə bilmədim".* Sitarənin xatirəsindən götürülmüş bu parçada vəziyyətin qərəzsiz etirafı var. O, səmimiyyətlə həmtayı arasındakı münasibəti açıqlayır. Onun Laçınla münasibətindəki gərginliyi yumşalda bilməməsi zəifiyinə yozula bilməz. Sadəcə Laçının təbiətini dəyişməyin mümkünsüzlüyünü göstərən fakt kimi oxucu bu düşüncələri düzgün qavrayır. Axı biz qeyd etdik ki, bir çox məsələləri həyat özü diktə edir. Hətta yolun hansı tərəfi qaranlıq görünürsə, onda işığa tərəf yön almaq özü də hər kəsin istəyi ilə bağlıdır. Sitarə təbiət etibarı ilə bütöv bir gəncdir. Nəsildən gəlmə, genetik, sağlam xasiyyətə sahibdir. O, kimsənin haqqını, hüququnu tapdamadığı kimi, özünün də haqqına, hüququna kimsənin girməsinə dözə bilməz. Elə bu səbəbdən də yaşayış yerini dəyişməli olur.

Xasiyyət insanı idarə edən sükandır. Biz Sitarəni idarə edən təbiətini təqdir edirik. Beləliklə, onun həyat yollarındakı çətinliklərə necə sinə gərəcəyini təsəvvürümüzdə canlandıra bilirik. Ancaq Laçının sonrakı taleyi necə olur. Xudbin təbiəti, özündən razılığı, başqalarına qarşı saymazyana münasibəti onun öz gələcəyi üçün gələcəkdə hansı fəsadlar yaradır - bu barədə bundan sonra əsərdə heç bir məlumat verilmir. Laçının taleyi haqqında düşünüb müəyyən qərara gəlmək məsələsini müəllif oxucunun ixtiyarına buraxır. Həqiqətən, bəzən oxucunun düşüncələri - əlbətə, həm də müəllifin göstərdiyi istiqamətdə düşüncələri yazılanlardan daha dərinliyə





gedib çıxa bilir. Müəllif sözün həqiqi mənasında Laçının xarakterini yaradır və o, oxucunun yadından çıxmır. Laçının kobud təbiətinin daha qabarıq üzə çıxmasını və ona münasibətin qərəzsiz olduğunu göstərmək üçün müəllif elə onun öz əmisi qızı Nəsrindən istifadə edir. Beləliklə, müəllif Laçını təkcə Sitarə ilə qarşılaşdırmır, onu həm də Nəsrinlə qarşılaşdırır. Əvvəlcə Nəsrin Laçından ayrılmalı olur. Burada da Sitarənin həyata dözümlü və səbirli münasibəti oxucunun diqqətindən yayınmır. Sanki müəllif Laçına daha bir şans verir. Əmisi qızının onlardan ayrılması ilə Laçının həyat həqiqətlərini daha düzgün qavramasına şərait yaradır. Təəssüf ki, belə olmur və Sitarə də Laçını tərk etməli olur.

Ötən əsrin 70-80-ci illərində Bakının kirayədarlıq və kirayənişinliklə bağlı həyatı da başqa bir aləm idi. Qədim mülk sahiblərindən qalmış həyətlərdə yaşayan varislər geniş otaqları kəsib ayrı-ayrı adamlara kirayəyə verirdilər. Bu, əlbəttə, qədimdənqalma məhəllələrə aiddir. Müəllifin yada saldığı *"Aşağı Dağlıq"* küçəsi (Nijni Naqorniy) də belə məhəllələrdən biridir. Müəllif həmin küçənin adamlarını, insanlarını elə fərdi detallarla təsvir edir ki, oxucu yaddaşında canlılıqları ilə fərqlənirlər.

...Hörmət nənə kirayədardır. Sitarə də həmyaşıdı olan bir qızla Hörmət nənənin göstərdiyi otaqda məskunlaşır. Burada Balakəndən olan iki bacı və bir qardaş da kirayəçidirlər. Az vaxt içərisində Hörmət nənənin də yüksək rəğbətini qazanır. Balakənli gənclərlə də sıx ünsiyyət bağlayır. Bu doğmalıq, bu yaxınlıq sanki onun həyatına yeni rənglər qatır. Hörmət nənənin təbitəni göstərmək üçün yazıçı Ulduz Qasım öz üslubuna uyğun olaraq ən təbii detallardan ustalıqla yararlanır: *"Ən az vaxtı olan mən idim. Kitabxanalardan evə yığışa bilmirdim. Biz həm rus ədəbiyyatı, həm xarici ölkələrin ədəbiyyatı, həm də Azərbaycan ədəbiyyatı öyrənirdik. Buna görə həddindən çox əsərlər oxumalı olurduq. Evdə oxumaqla çatdırmaq olmurdu. Bəzən də elə ədəbiyyatlar olurdu ki, evə aparmağa icazə vermirdilər. Buna görə elə kitabları kitabxanada oxumalı olurduq. Heç vaxt başqasının danışığından yadımda bir şey saxlaya bilmirdim. Gərək özüm oxuyaydım. Bu da çox vaxt aparırdı. Xülasə, yazmaqla da aram yox idi. Hər şeyi oxumasam xeyri olmurdu. Əzbərləmək qabiliyyətim də çox pisdi. Ancaq yaddaşımdan narazı deyiləm. Bu barədə bəxtim gətirib. Hərdən kitabxanadan lap gec gəlirdim. Bəzən Hörmət nənə çıxıb oturardu qapının ağzında, məni gözləyirdi. Yarıciddi-yarızarafat məni qorxudurdu:*

*- Ağəz, atova deyəcəm, qızın evə gec gəlir. Haradasan, ürəyim qopdu. Dedim görə qıza nə oldu?*

*Belə danışıqlardan, hədələrdən qorxmazdım, bilirdim ki, atam mənə inanır. Deyilənlərə inanmaz, buna baxmayaraq Hörmət nənəni cavabsız buraxmazdım:*

*- Nənə, kitabxanadaydım. Dərslərimi hazırlayırdım.*

*- Bilmirəm, evə tez gəl. Narahat oluram. Qız xaylağısan.*

*- Çalışaram, nənə.*

*Mən onun doğrudan da, narahat olduğuna inanırdım. Yaxşı nənə idi. Mən gec gələndə onu narahat görürdüm. Və tez məni çağırırdı:*

*- Gəl, yemək hazırlamışam. Yəqin acsan.*

*Etiraz qəbul etməzdi: -Sən harda yeyə bilərsən? Kitabxanada heç nə vermirlər. Tez boşqabını gətir.*

*Əlacsız boşqabımı aparırdım. Yeməsəm də, alıb gətirirdim ki, sakitləşsin. Bəzən səhər dərsə gedəndə gizlicə aparıb zibilə atırdım. Amma elə şeylər vardı ki, məmnuniyyətlə yeyirdim. Allah rəhmət etsin".* Hörmət nənəni kimliyi, onun təbiət etibarı ilə humanistliyi, insanpərvərliyi, öz kirayənişinlərinin həyatlarına diqqət göstərməsi, onlara həqiqətən bir nənə nəvazişi ilə yanaşması göstərir ki, Azərbaycan xalqının ən yaxşı keyfiyyətlərinin daşıyıcısı olan, bu keyfiyyətləri yaşadan insanlar az deyil və belələrini çox vaxt biz həyatda qədərincə görsək də, onları axıracan müşahidə etmək imkanımız olmur. Amma ayrı-ayrı əsərlərdə zəngin insan təbiətlərini görmək oxucuda insanlığın təbiətinə inam hissi təlqin edir. Oxucu inanır ki, həyatda güvənməli insan çoxdur, hətta beləlləri qoca, kimsəsiz bir qadın olsa da.

Ulduz Qasım yazıçı intuisiyası ilə yaxşı bilir ki, insan üçün ən yaxşı güzgü elə həmin insana yaxın olan, doğma olan digəridir. Bu mənada Hörmət nənənin oğlu Qulam maraqlı obrazdır. Müəllif onun təbiətini orijinal, yadda qalan cizgilərlə üzə çıxara bilir: *"Hörmət nənənin bir oğlu, bir qızı vardı. Oğlu çox qəribə adam idi. Adı Qulamdı, ancaq biz onu "Qulu dayı" çağırırdıq. Nə zaman həyətdəki qızlarla danışmaq istəsə, anası onu danlayardı:*

*-Qızlarla sənin nə işin var? Qoy, dərslərini hazırlasınlar. Gələndə mənim otağımdan başqa yerə başını soxma.*

*Qulu dayı onu sakitləşdirməyə çalışardı:*

*-Ay məə, mən olara nə diyirəm ki?! Halların, əhvalların xəbər alıram.*

*- Sənə dedim, onları narahat eləmə. Tələbədirlər, dərsləri var.*

*-...*

*Qulu dayı bildiyindən əl çəkmirdi. Həyətə gələn kimi hamıyla danışırdı. Yaxşı ki o, Hörmət nənə ilə yaşamırdı. Onun başqa yerdə evi, ailəsi, uşaqları vardı. Anası heç ondan razı deyildi. Deyilənlərə görə, həyat yoldaşından ayrılmaq istəyirdi. Hər dəfə həyətə gələndə nənə onu bu fikrindən daşındırmağa çalışırdı:*

*-Sənin böyük uşaqların var. Sənə yaraşmaz bu. Ailə dağıtmaq yaxşı iş deyil.*

*Qulu dayı özünə bəraət qazandırmaq üçün hansı donlara girmirdi:*

*-Ay mə, sən onun nə mal olduğunu bilmirsən. Məni heç saymır. İstədiyini edir...*

*-... Kəs səsini, ay atasına oxşamış. Qadına şər atma.*

*Qulu dayı dondan-dona girirdi:*

*-Vallah, adamı da var... gözümlə görmüşəm.*

*Hörmət nənə onun sözünü ağzında kəsirdi:*

*-Ağzına gələni danışma. Qadına şər atma. Mən səni yaxşı tanıyıram. Günahların hamısı səndədir. Onda heç bir günah yoxdur, uşaqlarının da. Bir də mənim yanımda belə sözlər danışma. Yalandan and içmə yüz dəfə sənə demişəm...*

*-Elə bil, onun anasısan, mənim yox.*

*-Sənin ananam deyə yalan danışım? Allah hər şeyi görür və bilir. Sənin baban da gəlsə yalan danışmaram. Qulu dayı deyinə-deyinə çıxıb gedirdi".*

***(Davamı 7-ci səhifədə)***

# 3. KİMLİYİN MƏNƏVİ TƏQDİMİ

*(Əvvəli 6-cı səhifədə)*

Bu kiçik parçaya müəllif insan təbiətini bir roman gücü ilə açan enerjini cəmləyib. Biz burada artıq Qulunun kimliyini açıq-aydın görürük. Başa düşmək olur ki, Qulu yüngül həyat yaşayan birisidir. Anasının kirayəçilərdən aldığı pulları da yeri gələndə ustalıqla mənimsəyir və havaya sovurur. Öz ailəsinin, uşaqlarının da qayğısını çəkməyi özünə borc bilmir. Hətta onun qızlarla ünsiyyət bağlamağa cəhdlərində gizli niyyətləri də var.

Ancaq unudur ki, buradakı mənəvi mühit onun üçün yaddır. O heç bir cəhətdən bu gənc qızların həyatına müdaxilə etmək gücündə deyil.

Hörmət nənənin böyüklüyü oğlu olsa belə Qulunun yaramaz hərəkətlərini açıq-aşkar tənqid etməkdən çəkinməməsindədir.

Sitarə Hörmət nənənin timsalında böyük Bakının dünyagörmüş nənə obrazını qavrayır. Sanki Hörmət nənə Bakının özüdür. Onun qızlara səmimi yanaşması, xüsusilə Sitarəni öz doğma balası kimi sevməsi, onunla səmimi söhbətlərə rəvac verməsi Sitarədə bu qoca nənəyə yüksək rəğbət hissi yaradır: "*Belə söhbətləri eşidəndə Hörmət nənəyə sevgim daha artırdı. Bilirsiniz öz balasını qoyub haqlı olsa belə başqasının övladının haqqını müdafiə etmək hər adamın işi deyil. Əhsən belə analara! Ədalətli insana. Bir dəfə oğlu gedəndən sonra məni çağırdı:*

*-Bax mən heç o gəlini sevmirəm. Amma bilirəm. Bu məsələdə günahkar mənim oğlumdur. Gözü yəqin ora-bura baxır. Çox narahatam, ailəsi dağılacaq.*

*Mən ona ürək-dirək verməyə çalışırdım öz aləmimdə:*

*- Özünüzü bu qədər üzməyin. İnşallah, yaxşı olar, Qulu dayı uşaq deyil. - Yenə övladları olmasaydı, dərd yarıydı, həm də oğlan uşaqları... Onların ataya çox ehtiyacı var.*

*- Allah islah etsin.*

*Hərdən onunla dərdləşirdik. Darıxanda məni çağırırdı:*

*-Səndən başqa bu qızların heç biri ilə danışa bilmirəm. Elə ona görə səni yanıma aldım.*

*-Sağ ol, nənə.*

*-Halal olsun səni tərbiyə edənə.*

*-...*

*-Neçə bacı-qardaşsınız?*

*-Yeddi.*

*-Ay maşallah, hamısı sağsalamatdır?*

*-Hə...*

*-Allah xoşbəxt eləsin!*

*-Sağ olun, Allah razı olsun.*

*-Atanı gördüm. Çox tərbiyəli insandır. Üstünüzdən əskik olmasın.*

*-Sizinlə bərabər.*

*Lap qoca qarılar kimi danışırdım.*

*Bunların hamısı ömrümün içində özünə yer tutur. Şirinli-acılı xatirələrin hər nöqtəsi, hər vergülü mənə əziz və doğmadır. Bir hərfini belə söküb ata bilməzsən. İnsan necə həyatını bir-birinə birləşdirən sözləri, cümlələri ayıra bilər? Ömür dediyin tikilən ev kimidir. Bir kərpicini çəkib atsan dağılıb-tökülər*". Sitarə Hörmət nənə ilə ünsiyyətini, demək olar ki, tələbəliyinin axırınacan qoruyub-saxlayır. Hətta onun ölümünü də acı bir təəssüratla gündəliyində yad edir.

İstər Hörmət nənənin, istər də onun oğlu Qulamın ana-oğul olmasına baxmayaraq, mənəvi mühitin müxtəlif tərəflərində, özü də zidd tərəflərdə görünməsi qətiyyən təsadüfi deyil. Müəllif ustalıqla müxtəlif insan mənzərələrini bir-biri ilə müqayisədə təqdim edir. Bu da imkan verir ki, həmin obrazları oxucu daha yaxından tanısın. Hətta onun özü də Hörmət nənədən sonra balakənli tələbə qız - qonşusu Gülşənlə birgə olub-keçənləri xatırlayır. Onların danışıq tərzini, həyata münasibətlərini ayrı-ayrı epizodlarla yenidən yaddaşa gətirir.

İnsan nə vaxt gülüş obyektinə çevrilir? İnsanın fiziki qüsuru heç vaxt onu gülüş obyekti edə bilmir. Əgər hər hansı bir şəxs zahirən xoşagəlməz olsa belə onun ağlı, düşüncəsi, həyat hadisələrinə münasibəti, nitqində sağlam mövqedən üzə çıxırsa, onda zahiri əlamətlərin xoşagəlməzliyi də nəzəri cəlb etmir. Əksinə, insanın daxilindən gələn işıq onu qaşrı tərəfə daha aydın, daha parlaq boyalarla təqdim edə, göstərə bilir.

Əgər insan zahirən harmonik olsa belə, daxili-mənəvi mühitində eybəcərdirsə, o özünü zahiri göz oxşarlığının altında gizlədə bilmir. Kimliyini çox tez biruzə verir.

Qulam da belə simalardan biridir. Əsərdə qızlar onu "*Qulu dayı*" da adlandırırlar, çünki o, adını bir çox hallarda Qulam yox, elə Qulu deyə təqdim edir, bu mühitdə Qulu "*Qulam*" adının əzizləmə formasıdır. Yüngül əxlaqlı, yüngül təbiətli Qulam da özünü Qulu kimi təqdim edəndə yaşının müəyyən mərhələyə çatmasına baxmayaraq, əslində elə yüngül təbiətliliyini təsdiqləyir. Sitarə Qulam obrazının kimliyi üzərinə axırıncı dəfə çox güclü işıq salır. Və onu gündəliyinin bu mərhələsinin başa çatması anında bir daha oxucunun yaddaşına yazır. Beləliklə, oxucu Qulamı onu dərindən müşahidə edən gənclərin gözü ilə təzədən portretə çevirir və heç vaxt unudulmur: "*Hərdən Gülşənlə onun sözlərini təkrarlayıb gülürdük. Qulam dayı oxuyub-yazmağı bilmirdi. Sadəcə adını yazmağı öyrənmişdi. Onu da düz yaza bilmirdi. Bir dəfə martın 8-də həyətdəki qızlara açıqca yazdırmışdı Cavanşirə. Cavanşir Gülşənin qardaşı idi.*

*İmza yerinə adını yazmışdı. "Qulam" əvəzinə "Qılam" yazmışdı. Bir də gördüm Gülşən "atkrıtkanı" alıb əlinə gülə-gülə gəlir:*

*-Sitarə, gör Qulam dayı nə yazıb?*

*-Nə yazıb?*

*O mənə yerini göstərdi. Doğrudan, mən də çox güldüm. Amma indi fikirləşirəm, gülməli nə varmış? "Savadsız adamın yazdığı yazı" ona görə deyirlər ki, cavanların ağlı bir qarış havadadır"*. Yeri gəlmişkən, yazıçının xalq adət və ənənəsini, həyata münasibətini bildirən etnoqrafik cizgilərdən istifadəsini də xatırlatmaq yaxşı olar. Belə ki, xalq düşüncə tərzindən gələn atmacaların, xalqın adət-ənənəsi ilə bağlı böyüklük-kiçiklik məsələlərinin aydın ifadə olunmasında cizgilərin təqdiminin əvəzsiz rolu var. Ulduzun doğulub-böyüdüyü mühitdə yaşlı adamlar cavanlara "*ağlı bir qarış havadadır*" deyirlər. Mətndən də çıxan nəticəyə əsasən, belə qənaətə gəlmək olar ki, Ulduz Qasım hələ gənc ikən xalq ruhunu kifayət qədər qavraya bilib. Hətta gənclərin nə üçün ağlının bir qarış havada olmaq məsələsini də dərk etdiyindən həyatında olub-keçmiş əhvalatı ümumiləşdirici məqam kimi xatırladır. Yaxud, məlum olduğu kimi, kəklikotu dərman bitkisidir. Bunu Ulduz yaxşı bilir. Şübhəsiz, kənddən gələndə kəklikotunu anasının sovqatı kimi özüylə gətirib. Və onun dəmləməsindən də vaxtlı-vaxtında istifadə edir. Şübhəsiz, şəhərlilər də kəklikotunun nə olduğunu yaxşı bilirlər. Ancaq onun adını sadəcə "*ot*" adlandırır. Və bu otun insana necə xoş təsir etdiyi haqqında da məlumatlıdırlar.

Ulduzun ədəbi yaradıcılıqda ilk qəhrəmanlarından olan Sitarə ot əhvalatına şəhərlilərin nitqi ilə yumorlu don geydirir. Və sözünün donunu elə şəkildə biçir ki, hətta kəklikotunu bilməyən, tanımayanların özlərində də xüsusi maraq oyadır. Bu yerdə bir maraqlı etüd də yadıma düşür: Ulu Öndər Heydər Əliyev Naxçıvanda bir çayxanada qonaq olur. İndi artıq o prezidentdir. Ətrafında müşayiət edənlər də var. Yığcam bir çay dəstgahı düzəldilir. Heydər Əliyev çaydan bir qurtum içən kimi deyir bunun xüsusi dadı var. Adamlar da tez cavab verirlər ki, çay kəkotu qarışığı ilə dəmlənib. Elə həmin andaca dünyagörmüş, həm də Azərbaycan dilinin incəliklərinə qədər bilicisi olan Heydər Əliyev münasibətini çox dəqiq ifadə edir. Biləsiniz ki, bu dərman bitkisinin adı "*kəkotu*" yox, "*kəklikotu*"dur.

Hər halda sözün canlı dildə səhv işlədilməsi müdrik insan tərəfindən etirazla qarşılanır. Ətrafdakı yaşlı insanlar da təsdiq edirlər ki, bəli, əslində kəklikotu deyilməlidir.

Ulduz Qasımın ədəbi qəhrəmanı Sitarə düşüncəsinə görə xalq ruhunun bilicisi kimi çıxış edir. Onun düşüncəsində xalqın adəti, ənənəsi, böyüyə hörmət göstərməyin kiçiklərin borcu olması mənəvi dəyər kimi qavranılır.

Sitarə Hörmət nənənin ən yorucu suallarına belə təmkinlə, ədəblə cavab verir. Çünki nənənin qəlbinin təmizliyinə, ruhunun saflığına inamı var.

Sitarə hansı keyfiyyətlərinə görə hörmət qazanır? Ən birincisi, insanlarla səmimi davranışına görə. Sonra da ətrafda ikrah doğura biləcək hər hansı əmələ yol verməməsinə görə. O, hətta Qulunun hərəkətlərində şitlik, dələduzluğa meyillilik hiss etsə də, bunu onun üzünə vurmur. Onunla ədəblə, ərkanla davranır. Ancaq yaxşı bilir ki, Quluya üz də vermək olmaz. Çünki Qulu üz aldığı yerdən astar da istəyəndir. Bütün bunları Hörmət nənə də görür. Əslində Hörmət nənə müdrik bakılı qadın obrazıdır. O, sahib olduğu mühitdə hər cür mənəvi nizamın tənzimləyicisidir. Hətta Sitarə ona xəstələnəndə kəklikotu verdiyi üçün bunu Sitarənin borcu hesab etmir. Bunu Sitarədən özünə hörmət və ehtiram kimi qəbul edir. Elə ona görə də oğlunun davranşının şitliyə doğru yönəlməsinin qarşısını vaxtında alır. Və onun diqqətinə çatdırır ki, hörmət göstərənin hörmətinin əvəzini elə ancaq hömətli davranışla qaytarmaq olar. Əlbəttə, Ulduz Qasım əsərinin qəhrəmanı Sitarə vasitəsi ilə bu məqamlara gündəliyində xüsusi yer ayırır: "*Bir də Hörmət nənə xəstələnəndə ona kəklikotu vermişdim çay dəmləmək üçün. Qulam dayının o qədər xoşuna gəlmişdi ki, kəklikotulu çay. Həmişə həyətə gələndə qapını döyüb kəklikotu istəyirdi:*

*-Ağez, o otdan varundu?*

*Məndə vardısa, verirdim. Hörmət nənə isə əsəbləşirdi:*

*-Qızı bezdirmə. Pis iş eləmədi ki, bizə ot verdi?*

*Mənə gülməli gələn onların kəklikotuya "ot" demələri idi. Mənim həyat hekayəmin çox hissəsi bax belə keçmişdir. Hamısını sizə danışmasam da, yadda qalanlarının çoxunu, deyəsən, xatırladım*". Əgər belə demək mümkünsə, Sitarə öz gündəliyində həyat romanı boyu rastlaşdığı hər hansı bir kimsəyə borclu qalmır. Onları maraqlı, yadda qalan cizgilərlə unudulmazlar cərgəsinə yazır. Bu cərgədə qədərincə ciddi və ləyaqətli adamlar olduğu kimi cəmiyyətin gülüş obyekti olacaq kimsələr də az deyil.



Sitarənin həyat romanının bu mərhələsi beləcə tamamlanır. Bəlkə də Hörmət nənə yaşasaydı, tələbəliyin qalan bir neçə ayını da Sitarə elə bu həyətdə başa vurardı. Ancaq Hörmət nənənin həyatdan getməsi bu evin, bu həyətin və eləcə də, bu məhdud dairənin həyatının nizamını dəyişəcək. Bu dəyişimələr haqqında Sitarə heç nə demir, heç nə xatırlatmır. Ancaq oxucuya bəs edir ki, gənc olmalarına baxmayaraq, Sitarə də, Gülşən də, digər həmyaşıdları da artıq həyatlarının müəyyən harmoniya üzərində qurulduğunu yaxşı bilir və bu harmoniyanı yəqin ki, bundan sonra da qoruyub-saxlamağa çalışacaqlar.

Gündəliyin bu hissəsinin axırına müəllif Sitarənin əli ilə "*10.04.1984*" yazır. Çox güman ki, bu tarix müəllifin gündəliyi qələmə aldığı tarixdir. Hər halda hiss olunur ki, Ulduz Qasımın sevə-sevə yaratdığı Sitarənin həyat romanının dumanlıqlardan keçib gələn bir mərhələsi burada bitir.

***14.06.2022***